1_Layout 1 14.03.2023 18:35 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 6 (645)

16 mart 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# GÜC SİMVOLU

## Prezident İlham Əliyev dünyada ən yüksək döyüş qabiliyyətinə malik ordulardan birini yaradıb

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu "Güc simvolu" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



Qafqazda ən güclü orduya malik ölkə olan Azərbaycan Vətən müharibəsindən sonra da Silahlı Qüvvələrin daha da modernləşməsi istiqamətində mühüm addımlar atır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu istiqamətdə qarşıya qoyduğu yeni vəzifələrə, tələblərə uyğun olaraq ordumuzun maddi-texniki bazası daha da modernləşir, mütəmadi keçirilən hərbi təlimlər isə Silahlı Qüvvələrin gücünə güc qatır. Hazırda Azərbaycan, Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir. Həyata keçirilən ordu quruculuğu nəticəsində bu gün Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verən ordu kimi formalaşıb.

Bu, bir həqiqətdir ki, İkinci Qarabağ müharibəsində əldə edilən zəfər illərlə keçirilən təlimlərin, alınan silah-sursatların, texnikalardan düzgün yararlanmanın və ən başlıcası, vahid komandanlıq sisteminin idarə edilməsinin uğurlu nəticəsidir.

Vətən savaşında böyük döyüş təcrübəsi toplayan Silahlı Qüvvələrimizin maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində mühüm işlər görülür. İşğaldan azad olunan bölgələrdə xüsusi təyinatlı hərbi hissələrin yaradılması, müasir hərbi texnika və silah-sursatla təchizat bunun əyani təzahürüdür.

Ali Baş Komandanın göstərişinə əsasən, müxtəlif hərbi təlimlərin keçirilməsi, hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması, ordumuzun müasir silah, hərbi texnika ilə təchiz edilməsi və bir sıra digər tədbirlər Azərbaycan Ordusunun Ermənistan ordusu üzərində qazandığı üstünlüyün qorunub saxlanılmasını təmin edir.

Azərbaycan Ordusu qarşısında qoyulan yeni tapşırıqlara əsasən, modernləşmə, silahlanma və hazırlıq sahələrində ordunun ən yüksək göstəricilərə sahib olması üçün konkret planlar, tədbirlər hazırlanıb.

Ordu komandanlığı buna uyğun tapşırıqların təxirəsalınmaz icrasını reallaşdırır. Bununla yanaşı, hazırda bir çox hərbi hissəmiz azad edilmiş ərazilərimizə dislokasiya edilir və ya həmin ərazilərdə yeni hərbi şəhərciklər salınır. Dislokasiya olunan bölgələrimizdə qoşun xidmətinin təşkili, şəxsi heyətin döyüş hazırlığının və döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, yeni hərbi infrastruktur obyektlərinin yaradılması, bölmələrin və idarəetmə məntəqələrinin fəaliyyətinin yaxşılaşdırılması, döyüş planlarının dəqiqləşdirilməsi, maddi-texniki, tibbi təminatın davamlı yüksəldilməsi, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi gündəlik fəaliyyətin əsas prioritetlərindəndir.

Ümumiyyətlə, peşəkar ordunun formalaşdırılması çoxşaxəli prosesdir və zamana bağlıdır. Bunun üçün uzun illər, bəzən onilliklər tələb olunur. Zamanın reallıqları təsdiq edir ki, modernləşmə ən vacib şərtlərdən biridir.

Hazırda Azərbaycan Ordusunun şəxsi heyətinin peşəkarlığının daha da artırılması üçün müxtəlif tədbirlər planı əsasında hərbçilərimiz davamlı olaraq yerli və xarici ölkələrdə təşkil olunan təlimlərə qatılırlar.

Bu ilin döyüş hazırlığı planına müvafiq olaraq Azərbaycan Ordusunda hərbi qulluqçuların fərdi bacarıqlarının təkmilləşdirilməsi, eləcə də bölmələrin döyüş qabiliyyətinin daha da artırılması məqsədilə təlim və məşğələlər davam etdirilir.

Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunun minaatan və tank bölmələri ilə döyüş hazırlığı məşğələləri keçirilib. Minaatan bölmələrinin hazırlığında təlim atış çalışmaları üzrə tapşırıqları yerinə yetirən bölmələr təyin olunmuş hədəfləri minaatanlardan yüksək dəqiqliklə məhv ediblər. Qabaqcıl döyüş təcrübəsi nəzərə alınmaqla keçirilən məşğələlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

Tank bölmələrinin döyüş hazırlığının yoxlanılması üzrə ümumqoşun poliqonunda keçirilən tədbirlərdə döyüş maşınlarının idarə olunması, eləcə də şərti düşmən hədəflərinin məhv edilməsi üzrə yoxlama və nəzarət çalışmaları uğurla icra olunub. Burada məqsəd döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və heyət üzvlərinin fərdi bacarıqlarının daha da təkmilləşdirilməsidir. Bununla yanaşı, tank heyətləri ilə sürücülük və atəş hazırlığı üzrə müxtəlif çalışmalar yerinə yetirilib. Tank heyətləri ərazidə təbii və süni maneələri dəf edərək döyüş maşınlarının idarə olunması, şərti düşmən hədəflərinin yerində və hərəkətdə məhv edilməsi üzrə tapşırıqları uğurla icra ediblər.

Plana əsasən piyadaların döyüş maşınları ekipajları ilə sürücülük və atəş hazırlığı üzrə praktiki çalışmalar yerinə yetirilib. Çalışmalarda əsas diqqət sürücü-mexaniklərin döyüş texnikasını idarəetmə qabiliyyətlərinin, eləcə də tuşlayıcı operatorların zirehli texnikadan hərəkətdə və dayanaraq atəşaçma bacarıqlarının inkişaf etdirilməsinə yönəldilib.

Bununla yanaşı, təsdiq edilmiş müvafiq döyüş hazırlığı planına uyğun olaraq Hərbi Hava Qüvvələrinin helikopter bölmələri ilə də təlim-məşq uçuşları həyata keçirilib. Helikopterlər bazalanma aerodromlarından müəyyənləşdirilmiş marşrutlar üzrə uçuşlar edib və ekipajların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşqlərdə qarşıya qoyulan tapşırıqlar icra edilib.

Bununla yanaşı, təsdiq edilmiş müvafiq döyüş hazırlığı planına uyğun olaraq Hərbi Hava Qüvvələrinin helikopter bölmələri ilə də təlim-məşq uçuşları həyata keçirilib. Helikopterlər bazalanma aerodromlarından müəyyənləşdirilmiş marşrutlar üzrə uçuşlar edib və ekipajların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşqlərdə qarşıya qoyulan tapşırıqlar icra edilib.

Ordumuzun mühəndis bölmələri ilə də döyüş hazırlığı üzrə məşğələlər həyata keçirilib. Belə ki, xüsusi hazırlanmış mühəndis şəhərciyində Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin Mühəndis Qoşunlarının hərbi qulluqçularının iştirakı ilə keçirilən məşğələlər zamanı istehkamçılar ərazinin kəşfi, minaaxtaranlar vasitəsilə minaların və partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, eləcə də digər tapşırıqları praktiki olaraq icra ediblər. Məşğələlərin keçirilməsində başlıca məqsəd mühəndis təminatını yerinə yetirən hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin və döyüşə hazırolma vərdişlərinin, eləcə də silahlanmada olan müasir mühəndis texnikası və avadanlıqlarından səmərəli istifadəetmə üzrə bacarıqlarının təkmilləşdirilməsidir.

Bir sözlə, Azərbaycan Ordusunun bütün birlik və birləşmələrində müxtəlif səviyyəli irimiqyaslı əməliyyat-taktiki təlimlərin keçirilməsi həm ordumuzun qüdrətini nümayiş etdirir, həm də döyüş qabiliyyətini, gücünü artırır.

# VƏTƏNƏ, DÖVLƏTƏ, XALQA SƏDAQƏT NÜMUNƏSİ





Martın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yaranmasının növbəti ildönümünü qeyd edib. Bu münasibətlə Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov, Daxili Qoşunların rəhbər heyəti və hərbi qulluqçuları Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər. Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş Vətən övladlarının uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.

Həmin gün Daxili İşlər Nazirliyində Daxili Qoşunların rəhbər heyətinin iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev iştirak edib.

Əlamətdar gün münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, zati-alilərinin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov Milli Lider Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla xatırladaraq, Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf və tərəqqi strategiyası nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib.

**Davamı 2-ci səhifədə.**

# VƏTƏNƏ, DÖVLƏTƏ, XALQA SƏDAQƏT NÜMUNƏSİ



Əvvəli 1-ci səhifədə.

Nazir vurğulayıb ki, bu gün dövlət başçısının ali diqqət və qayğısının, tələb və göstərişlərinin nəticəsi olaraq, Daxili Qoşunlar qarşısına qoyulan istənilən döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməyə qadirdir. Müzəffər Ali Baş Komandanın əmri ilə düşmən həmlələrinə qarşı keçirilən "Dəmir yumruq" əks-hücum əməliyyatlarında hərbi qulluqçularımız bunu bir daha təsdiq etdilər.

Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarların, cənab Prezidentin martın 11-də imzaladığı müvafiq sərəncamla daha 12 hərbi qulluqçunun dövlət mükafatları ilə təltif olunmasının şəxsi heyət tərəfindən minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılandığını vurğulayan nazir V.Eyvazov onu da qeyd edib ki, ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də qoşunların xidmətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır. O da qeyd olunub ki, məhz Ali Baş Komandanın əvəzsiz dəstəyi sayəsində Daxili Qoşunların maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, hərbi hissələr müasir standartlara uyğun texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilib.

Möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsi günlərində şəxsi heyətin ölkədə hərbi vəziyyət rejimini etibarlı təmin etməsini, bu gün isə işğaldan azad olunmuş ərazilərdə öz şərəfli xidmətini peşəkarlıqla davam etdirməsini vurğulayan nazir Vilayət Eyvazov qoşunların hərbi qulluqçularının bundan sonra da vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcəklərinə, asayişin və daxili təhlükəsizliyin keşiyində qətiyyətlə dayanacaqlarına əminliyini ifadə edib.



Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və fəaliyyəti barədə məruzə ilə çıxış edib.

Tədbirə yekun vuran nazir V.Eyvazov DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində göstərdiyi şücaəti, respublikamızın hər yerində, o cümlədən işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətləri cənab Prezidentin yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edərək vurğulayıb ki, bu ali diqqət və qayğı hərbi qulluqçuların xidməti vəzifələrini daha böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir. O, qoşunların hərbi qulluqçularının bundan sonra da vətəndaşların və dövlətin qanuni mənafelərinin hüququzidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcəklərinə, asayişin və daxili təhlükəsizliyin keşiyində əzm və qətiyyətlə dayanacaqlarına əminliyini ifadə edib.

Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə Daxili işlər nazirinin və nazir müavini - daxili qoşunların komandanının imzaladıqları əmrlər elan olunub, mükafatlar sahiblərinə təqdim edilib.

**DİN-in Mətbuat xidməti**

# PREZİDENTİN SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİ DAXİLİ QOŞUNLARIN ŞƏRURDAKI HƏRBİ HİSSƏSİNDƏ OLUB



Martın 11-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 31-ci ildönümündə Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Daxili Qoşunların Şərur rayonu ərazisində yerləşən hərbi hissəsində xidmət və yaşayış şəraiti ilə tanış olub.



Səlahiyyətli nümayəndə hərbi hissənin xatirə kitabını yazıb.

Hərbi hissənin balansında olan silah, xüsusi vasitələr, avtomobil və zirehli texnikaların nümayişi olub.

Hərbi hissə ilə tanışlıqdan sonra keçirilən tədbirdə əvvəlcə şəhidlərin və Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasının Daxili işlər naziri polis polkovniki Süleyman Neymətov çıxış edərək Azərbaycan Respublikasının Daxili işlər naziri adından şəxsi heyəti Daxili Qoşunların yaranmasının 31-ci ildönümü münasibətilə təbrik edib. Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər nəticəsində Daxili Qoşunların keçdiyi böyük təşkilatlanma və inkişaf yolundan, hərbi qulluqçuların İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətdən danışıb. Daxili Qoşunların şəxsi heyətinin ölkə Prezidenti tərəfindən qarşıya qoyulan tapşırıqları hər an yerinə yetirməyə qadir olduğu vurğulanıb.

Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəxsi heyəti "Heydər Əliyev İli" və Daxili Qoşunların yaranmasının 31-ci ildönümü münasibətilə təbrik edərək deyib ki, Daxili Qoşunların yaranması günü məhz Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Birinci Qarabağ müharibəsində həm şəhidlərimiz, eyni zamanda qazilərimiz olub. Uzun müddət ərzində səbrlə, təmkinlə yürüdülmüş siyasət məhz ona xidmət edirdi ki, həm Azərbaycan Ordusunun, həm də Daxili Qoşunların maddi-texniki bazası təkmilləşdirilsin və müasir standartlara uyğunlaşdırılsın. Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin bu sahəyə diqqəti Azərbaycan Ordusunun və Daxili Qoşunların inkişafına səbəb olub. Bunun nəticəsində Vətən müharibəsində düşmənə layiqli cavab verildi. Əgər lazım olarsa, bundan sonra da rəşadətli övladlar yetişdirmiş bu torpaq və onun oğulları düşmənə yerini göstərəcək.

Sonda hərbi hissənin əsgər yeməkxanasında şəxsi heyətlə birlikdə nahar edilib.

Əsgər Xəyal Məmmədov yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlığını bildirib.

**Ordu.az**

# HƏRBİ HİSSƏDƏ ŞƏHİDLƏR ABİDƏSİNİN AÇILIŞI OLUB

Ötən 31 ildə Daxili Qoşunlarda şəhid hərbi qulluqçularımızın xatirəsinin əbədiləşdirilməsi istiqamətində böyük işlər görülüb. Bu gün də Daxili Qoşunların komandanlığı göstərilən məsələni xüsusi diqqət mərkəzində saxlayır. Respublika ictimaiyyəti və şəhid ailələri sözügedən işləri minnətdarlıqla qarşılayırlar.

Martın 12-də 99713 saylı hərbi hissədə Birinci Qarabağ müharibəsi və Vətən müharibəsi zamanı respublikamızın müdafiəsi, habelə ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçularımızın xatirəsinə ucaldılan yeni abidənin açılış mərasimi keçirilib. Mərasimdə Daxili qoşunlar komandanının müavini – şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Hacıbaba Babayev, Binəqədi Rayon Polis İdarəsi rəisinin xidmət üzrə köməkçisi polis polkovnik-leytenantı Vüsal Axundov, şəhid ailələrinin üzvləri, qazilər və digər qonaqlar iştirak ediblər.





Öncə abidənin önünə əklillər və gül dəstələri qoyulub, əbədi məşəl alovlandırılıb. Sonra hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik Elsevər Fətəliyev qonaqları təqdim edərək, mərasimin planını çatdırıb. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Dövlət Himni oxunub.

Daxili qoşunlar komandanının müavini – şəxsi heyət üzrə idarənin rəisi general-mayor İ.Muradov mərasimdə çıxış edərək qonaqları salamlayıb. O bildirib ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ölkəmizin mühüm hərbi qurumlarından biri kimi şərəfli yol keçib. Qeyd olunub ki, Daxili Qoşunların Vətənin müdafiəsində xidmətləri, öz vəzifələrini müvəffəqiyyətlə yerinə yetirməsi Ümummilli Lider Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilərək, 9 mart 1995-ci il tarixli müvafiq fərmanla 12 mart Daxili Qoşunların Günü elan edilib. Məhz həmin gün qoşunların şəxsi heyəti erməni işğalçılarına qarşı ilk dəfə döyüşə başlayıb. Beləliklə, hər il 12 mart tarixi qoşunlarda qürur hissi ilə qeyd olunur.

General-mayor İ.Muradov hərbi qulluqçularımızın istər Birinci Qarabağ müharibəsi, istərsə də 44 günlük Vətən müharibəsi zamanı misilsiz şücaət nümunələri göstərdiklərini, döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirdiklərini nəzərə çatdırıb. Hərb tariximizin şərəfli səhifəsi olan Vətən müharibəsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin qazandığı möhtəşəm qələbənin tarixi əhəmiyyətini xüsusi vurğulayan general-mayor İ.Muradov torpaqlarımızın şəhidlərimizin və qazilərimizin qanı bahasına azad olunduğunu bildirib.

Komandan müavini hərbi hissədə yeni abidənin açılışının şəhidlərimizin xatirəsinə dərin ehtiramın təzahürü olduğunu söyləyib. Çıxışının sonunda o, tədbir iştirakçılarını Daxili Qoşunların Günü və yeni abidənin açılışı münasibətilə komandanlıq adından təbrik edib.

Hərbi hissənin komandiri polkovnik Alim İsmayılov öz çıxışında şəxsi heyətin şərəfli döyüş yolu, o cümlədən şəhidlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən işlər barədə danışıb, açılışı edilən abidənin inşası prosesi, memarlıq xüsusiyyətlərinə dair məlumat verib.

Şəhid hərbi qulluqçumuz baş çavuş Səid Cəfərovun anası Könül Cəfərova mərasimdə çıxış edərək övladlarının xatirəsinə göstərilən ehtirama, onların adlarına layiq abidənin yaradılmasına görə şəhid ailələri adından dərin minnətdarlığını bildirib.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü, gənc yazar Sevindik Nəsiboğlu mərasim iştirakçılarını "Möhtəşəm zəfərin nişanəsi" adlı kitabının məzmunu barədə məlumatlandırıb.

Tədbir başa çatdıqdan sonra hərbi hissədə qonaqlar üçün çay süfrəsi təşkil edilib.

Qeyd edim ki, abidənin ümumi sahəsi 150 kvadratmetrdir. Abidənin üzərində Daxili Qoşunların emblemi, eləcə də hərbi hissənin şəhid hərbi qulluqçularının şəkilləri və adları öz əksini tapıb.

**Yalçın Abbasov**

3_Layout 1 14.03.2023 18:07 Page 1



# "HEYDƏR ƏLİYEV İLİ" ÇƏRÇİVƏSİNDƏ SİLSİLƏ TƏDBİRLƏR KEÇİRİLİR

### Ali Hərbi Məktəbdə Ümummilli Liderə həsr olunmuş elmi konfrans

2023-cü il Azərbaycanın ictimai-siyasi həyatında möhtəşəm hadisələrlə əlamətdar olacaq. Belə ki, bu il



Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 105-ci, Ulu Öndər Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıdışının 30-cu ildönümü, cənab İlham Əliyevin respublikamıza rəhbərliyinin 20-ci ili tamam olur. Bu ilin əlamətdar hadisələrindən ən başlıcası isə müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyidir. Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması da bu baxımdan xalqımız tərəfindən razılıqla qarşılandı.

Tarixə nəzər salsaq görərik ki, hələ keçmiş dövrlərdən bu günə kimi misilsiz xidmətləri ilə yaddaşlarda iz qoyan sərkərdələr, şəxsiyyətlərin rolu barədə çox deyilib, çox yazılıb. Məhz bu kontekstdə qeyd etməyi vacib bilirəm ki, güclü dövlətlərin şərəf tarixi böyük şəxsiyyətlərin sayəsində formalaşır. Bəşər tarixinin bütün mərhələlərində olduğu kimi, XX əsrdə də müxtəlif xalqların taleyində liderlərin əvəzolunmaz xidmətləri olub və onların sırasında dayanan böyük şəxsiyyətlərdən biri də Azərbaycan xalqının



Ümummilli Lideri Heydər Əliyevdir.

Görkəmli dövlət xadimi, xalqın ən adi bir vətəndaşı ilə də ünsiyyət qurmağı bacaran Ulu Öndərin əziz xatirəsini yad etmək üçün ölkəmizdə müxtəlif tədbirlər təşkil olunur. Bu tipli tədbirlərdən biri də Daxili Qoşunların Ali Hərbi Məktəbində onun həyat və fəaliyyətinə işıq salmaq məqsədilə keçirilib. Belə ki, fevralın 28-də Ali Hərbi Məktəbdə "2023-cü il – Heydər Əliyev İlidir" mövzusunda keçirilən elmi konfransa Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu ağa Bakıxanov adına Tarix İnstitutunun Qərbi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Cəbi Bəhramov və həmin institutun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Bəxtiyar Həsənov fəxri qonaq qismində dəvət olunublar. Həmçinin tədbirdə Ali Hərbi Məktəb rəisinin vəzifələrini müvəqqəti icra edən polkovnik Hamlet Qurbanov, Ali Hərbi Məktəbin zabitləri və kursantları iştirak ediblər.

Öncə Ümummilli Lider H.Əliyevin və torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni oxunub. Ardınca C.Bəhramova söz verilib. Məruzəçi "Heydər Əliyevin həyat və fəaliyyəti" mövzusunda çıxış edərək ömür yolu hər bir azərbaycanlıya örnək kimi göstərilən dahi şəxsiyyətin maraqlı məziyyətlərini kursantların diqqətinə çatdırıb.

Sonra Ümummilli Lider Heydər Əliyevə həsr olunan qısametrajlı videofilm nümayiş etdirilib.

Digər qonaq B.Həsənov isə "Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində rolu və yeri" mövzusunda çıxış edərək bir-birindən maraqlı faktlar barədə gələcəyin zabitlərini məlumatlandırıb.

Təbiidir ki, Azərbaycan xalqının xilaskarı kimi adını tarixə yazdıran H.Əliyevin irsi haqqında saatlarla, günlərlə danışmaq kifayət etməz. Elmi konfranslarda onun siyasi fəaliyyətinin yalnız ən vacib məqamlarına nəzər salınır, bununla bağlı dinləyicilər maarifləndirilir.

Elmi konfransda yekun olaraq çıxış edən Ali Hərbi Məktəb rəisinin tərbiyə işləri üzrə müavini polkovnik Nəriman İsayev mövzu üzrə dərinməzmunlu məruzələr hazırladıqlarına və tədbirdə iştirak etdiklərinə görə qonaqlara komandanlıq adından minnətdarlığını bildirib.

### Daxili Qoşunların Muzeyinə kursantların ekskursiyası təşkil olunub





Ümummilli Liderin anadan olmasının 100-cü ildönümü münasibətilə Daxili Qoşunlarda keçirilən tədbirlər çərçivəsində onun dövlətçilik irsinin öyrənilməsi xüsusi diqqət mərkəzində saxlanılır. Martın 8-də Daxili Qoşunların Ali Hərbi Məktəbinin kursantları 67987 saylı hərbi hissənin ərazisində yerləşən Daxili Qoşunların Muzeyində olublar. Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri kapitan Sadıq Rəfiyev kursantları Daxili Qoşunların tarixini və bu gününü əks etdirən maraqlı eksponatlarla tanış edib.

Ekskursiya zamanı Ümummilli Lider Heydər Əliyevin və Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdikləri diqqət və qayğını əks etdirən ekspozisiya ilə tanışlığa xüsusi diqqət yetirilib. Ümummilli Liderin Daxili Qoşunların xidməti fəaliyyətinə verdiyi yüksək qiymət, xüsusən döyüş bölgəsində olmuş şəxsi heyətin fəaliyyətinin məhz onun tərəfindən müsbət xarakterizə olunmasının hər bir hərbi qulluqçunu layiqli xidmətə ruhlandırdığı kursantların nəzərinə çatdırılıb. Bildirilib ki, Azərbaycanın ordu quruculuğu prosesində xüsusi xidmətləri olmuş dahi şəxsiyyətin dövlətçilik ənənələrinə söykənən siyasi kursu bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı dövlət başçısının rəhbərliyi altında Silahlı Qüvvələrimizin qazandığı möhtəşəm hərbi zəfər milli tariximizin qürur səhifəsidir. Müzəffər Ali Baş Komandanın hərbçilərimizə göstərdiyi ehtiramın bu günün və gələcəyin zabitləri üçün çox əhəmiyyətli mənəvi-psixoloji dəstək amili olduğu vurğulanıb.

Kursantlar ekspozisiyada təqdim olunan materiallara böyük maraq göstəriblər, onların mövzu üzrə sualları muzey rəhbəri tərəfindən cavablandırılıb.

**kapitan Nigar Ağayeva**

# BÜLBÜLƏDƏKİ ORTA MƏKTƏBDƏ ŞƏHİD DÖYÜŞÇÜNÜN XATİRƏSİ ANILIB

Birinci Qarabağ müharibəsi zamanı Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tərkibində şərəfli döyüş yolu keçərək şəhid olmuş hərbi qulluqçularımızdan biri də əsgər Vüqar Bədəlovdur. O, 1973-cü il martın 3-də Bakıda anadan olub. Vətənpərvər və imanlı gənc kimi formalaşıb. Sovet ordusu sıralarında hərbi xidmətini yarımçıq qoyaraq Vətənin çətin günlərində geri qayıdıb. Könüllü olaraq ön cəbhədəki hərbi hissəyə göndərilib. 1992-ci il noyabrın 6-da isə Ağdam rayonunun Sırxavənd kəndi uğrunda döyüşdə ağır yaralanaraq şəhadətə qovuşub. Yaşasaydı, bu il 50 yaşını qeyd edəcəkdi. İgid silahdaşımızın xatirəsi heç vaxt unudulmur, adı ehtiramla anılır.

Şəhid haqqında ilk məqalə "Əsgər" qəzetinin 28 iyul 1993-cü il tarixli sayında işıq üzü görüb. Məqalənin müəllifi ölkəmizin ilk hərbi jurnalistlərindən biri olan, "Qızıl qələm" mükafatı laureatı Mərdan Hüseynlidir.





Azərbaycan Respublikası Prezidentinin 9 mart 2007-ci il tarixli müvafiq sərəncamı ilə əsgər V.Bədəlov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

Martın 3-də Bakının Suraxanı rayonunun Bülbülə qəsəbəsində yerləşən Dilavər Məmmədzadə adına 232 saylı tam orta məktəbdə şəhidin anadan olmasının 50-ci ildönümü münasibətilə anım mərasimi keçirilib. Vüqarın vaxtilə oxuduğu bu məktəb özünəməxsus ənənələri, o cümlədən ictimai tədbirləri ilə fərqlənən təhsil ocağıdır. Məktəbdə keçirilən mərasimdə şəhidin bacısı, Daxili Qoşunların sabiq hərbi qulluqçusu, ehtiyatda olan gizir Səbirə Əliyeva, Səbirə xanımın oğulları Riyad Əliyev, Vahid Əliyev, əmisi oğlu Etibar Bədəlov, bacısı qızı Fatimə Əliyeva, şəhid anaları Kəmalə Həsənova, Elvira Fərzullayeva, Cahan Əsədova, Narınc Orucova, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədr müavini Salman Musayev, AVMVİB-in Suraxanı Rayon Şöbəsinin sədri Eldar Rüstəmov, Suraxanı Rayon İcra Hakimiyyətinin şöbə müdiri Elmar Hüseynov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Suraxanı Rayon Şöbəsinin hərbi qulluqçusu mayor Namiq Orucov, Daxili Qoşunların zabitləri və veteranları, rayon ictimaiyyətinin nümayəndələri, müəllimlər, habelə şagirdlər iştirak ediblər.

232 saylı tam orta məktəbin direktoru Nisə Fərəcova mərasimi açaraq iştirakçıları salamlayıb. O, qonaqları təqdim edərək, tədbirin planı barədə məlumat verib. Sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Dövlət Himni oxunub. Direktor giriş nitqində ölkəmizdə şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, döyüş yolunun işıqlandırılması istiqamətlərində çoxşaxəli işlərin görüldüyünü, bunun təhsil müəssisələrini də əhatə etdiyini diqqətə çatdırıb. N.Fərəcova məktəbdə şəhid ailələrinin üzvləri və veteranların iştirakı ilə vətənpərvərlik mövzusunda müntəzəm tədbirlərin keçirilməsinin müsbət bir ənənəyə çevrildiyini deyib. Təşkil edilən mərasimin şəhidin xatirəsinə dərin ehtiramın təzahürü olduğunu söyləyib.

Tədbirdə igid döyüşçünün mənalı ömür yolundan bəhs edən videoçarx göstərilib. Məktəb şagirdlərinin təqdim etdikləri "Şəhidlər ölməz, Vətən bölünməz!" adlı bədii kompozisiya maraqla qarşılanıb. Vətənə və şəhidlərə həsr olunan şeirlər, eləcə də mahnılar səsləndirilib.

Daha sonra tədbirdə iştirak edən qonaqlara söz verilib. Daxili Qoşunların Ali Hərbi Məktəbi rəisinin tərbiyə işləri üzrə müavini polkovnik Nəriman İsayev, veteranlarımız Salman Musayev, Səfxan Bayramov, Mərdan Hüseynli, Güləbətin Əsədova, digər qonaqlardan Elmar Hüseynov, Eldar Rüstəmov, Etibar Bədəlov, şəhid anaları Kəmalə Həsənova, Elvira Fərzullayeva, Cahan Əsədova, Narınc Orucova mərasimdə çıxış ediblər və şagirdlərin suallarını cavablandırıblar. Çıxışlarda şəhidlik zirvəsinin müqəddəsliyi vurğulanıb, dövlətçilik təfəkkürü, vətənpərvərlik məfhumu, düzgün tərbiyə və təhsilin tarixi köklərimizə, mənəvi dəyərlərimizə, hərbi ənənələrimizə bağlılığımızı möhkəmləndirdiyi söylənilib. Bununla yanaşı, müharibə sınaqları, hərbi qulluqçularımızın qəhrəmanlıq nümunələri, torpaqlarımızın işğaldan azad edilməsi naminə şəhid və qazilərimizin göstərdikləri fədakarlığın gənc nəslə örnək olduğu barədə də danışılıb.

Çıxış edənlər 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazandığımız hərbi zəfər nəticəsində şəhidlərimizin qisasının alındığını, doğma yurdlarımıza qovuşduğumuzu, bu gün qalib dövlətin vətəndaşları kimi qürur hissi yaşadığımızı bildirərək gəncləri mübarizliyə, şanlı ənənələrin davamçıları olmağa çağırıblar.

S.Əliyeva mərasimdəki çıxışında şəhid qardaşı ilə bağlı xatirələrini bölüşüb. O, ailəsinə göstərilən diqqət və qayğıya görə Daxili işlər nazirinə və Daxili qoşunların komandanına dərin minnətdarlığını ifadə edib, tədbirin təşkilində məktəb direktorunun, müəllim və şagirdlərin zəhmətini yüksək qiymətləndirib, mərasimə qatılan qonaqlara təşəkkürünü bildirib.




Sonda tədbir iştirakçıları xatirə şəkli çəkdiriblər. Həmin gün məktəbdə şəhidin adına ehsan süfrəsi də açılıb, ruhuna dualar oxunub.

**Yalçın Abbasov**

4_Layout 1 15.03.2023 9:40 Page 1



## YÜKSƏK DÖYÜŞ HAZIRLIĞINA MALİK BÖLÜK



Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin komendant bölüyü döyüş bayrağını, nəqliyyat vasitələrinin saxlanıldığı parkı, ərazidəki anbarları, 64412 saylı hərbi hissənin anbarlarını etibarlı mühafizə və müdafiə edir. Xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil olunur.

Bölük komandiri kapitan Xalid Mustafayev xidmətin təşkili barədə danışarkən diqqətə çatdırdı ki, xidmətə cəlb edilməzdən öncə komandir müavinləri tərəfindən şəxsi heyətə təlimat keçirilir, hərbi nizamnamələrin müvafiq maddələri çatdırılır. Bundan əlavə, hərbi qulluqçularla fərdi söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, tibb xidmətinin həkimləri tərəfindən sağlamlıqları yoxlanılır və ciddi nəzarətdə saxlanılır.

O əlavə etdi ki, hərbi hissənin tərbiyə işləri üzrə bölməsində təlimatçı-psixoloq leytenant Vüsal Məmmədov da hər gün qarovul xidmətinə cəlb edilən şəxsi heyətlə fərdi söhbətlər aparır. Hər bir hərbi qulluqçuya fərdi yanaşan psixoloq bildirdi ki,



qarovul xidməti böyük məsuliyyət və diqqət tələb etdiyindən, nizam-intizamı, təlim-tərbiyəsi ilə fərqlənən, sağlamlıq durumu qaydasında olan hərbi qulluqçular bu xidmətə cəlb olunurlar.

Məlumdur ki, məsuliyyətli, eyni zamanda, mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, nizam-intizamının qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Kapitan X.Mustafayev keçirilən məşğələlərin şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına təkan verdiyini bildirdi.

Bundan əlavə, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Səməd Əliyev tərəfindən tərbiyə işi tədbirləri keyfiyyətlə keçirilir. Bunun nəticəsidir ki, bu gün komendant bölüyü hərbi hissənin seçilən bölmələri arasındadır.

Sonda kapitan X.Mustafayev bölüyün qabaqcıl hərbi qulluqçularından baş gizir Niyaməddin Quliyev, baş çavuş Rəcəb Aslanov, çavuş Asim Bəbirli, əsgərlər Samir Sədiyev və Akşin Nəcəfzadənin adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını dedi.

**kapitan Şahin Cəfərzadə**

## LAYİQLİ XİDMƏTİLƏ FƏQLƏNƏN MÜHƏNDİS-TEXNİKİ İSTİSMAR HİSSƏSİ

Daxili Qoşunların 17077 saylı hərbi hissəsində helikopter manqasının mühəndis-texniki istismar hissəsinin şəxsi heyəti qarşıya qoyulan tapşırıqları layiqincə icra edir, nizam-intizamı ilə fərqlənir. Helikopter manqasında mühəndis-texniki istismar hissəsinin rəisi baş leytenant Emin Cəlilovun bu işdə rolu böyükdür.



Mühəndis-texniki istismar hissəsinin rəisi kimi aviasiya texnikasının döyüş hazırlığına, sazlığına, uçuşlara tam və keyfiyyətlə hazırlanmasına cavabdehlik daşıyan zabit aviasiya texnikasının konstruksiyasını, istismar qaydalarını, tətbiq olunan yanacaq-sürtkü materiallarının, xüsusi mayelərin və qazların növlərini, məsrəf normalarını, həmçinin hər helikopter üçün istifadə edilən yanacaq və yağın faktiki məsrəf normalarını bilir, gündəlik olaraq qaydalara əməl edir.



Baş leytenant E.Cəlilov söylədi ki, helikopterlərin uçuşa hazırlığı üçün bütün işləri şəxsən yerinə yetirir və nasazlıqlar olarsa, onların dərhal aradan qaldırılması üçün əlindən gələni əsirgəmir: "Uçuşdan öncə hər bir helikopterə baxış keçirilir, uçuşa hazırlıq vəziyyəti yoxlanılır. Bu zaman aviasiya texnikasının yerüstü xidmət vasitələrinə nəzarət olunur, yanacağın, yağın, xüsusi maye və qazların keyfiyyəti yoxlanılır, hər şey qaydasında olarsa, uçuşa icazə verilir. Təhlükəsizlik qaydalarına və yanğın əleyhinə tədbirlərin tələblərinə də ciddi şəkildə riayət olunur".

Bundan əlavə, təsdiq edilmiş müvafiq cədvələ əsasən, helikopter manqasının borttexnikləri ilə məşğələlər də təşkil olunub keçirilir. Məşğələlər zamanı aviasiya texnikasının qabaqcıl istismar təcrübəsi hərbi qulluqçulara çatdırılır.

Hissə rəisi görülən işlərdə helikopter mühərriklər reqlament və istismar qrupunda baş mexanik baş çavuş Orxan Beydullayevin, mexaniklər baş çavuş Nicat Qurbanovun və baş çavuş Sahil Xankişiyevin əməyini yüksək qiymətləndirdi.

**kapitan Xədicə Hacızadə**

## ŞƏXSİ HEYƏTİN NORMALARA UYĞUN QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Hərbi qulluqçuların sağlamlığının qorunması və möhkəmləndirilməsi əsas diqqət yetirilən məsələlərdəndir. Bu baxımdan şəxsi heyətin yüksək kalorili, keyfiyyətli yeməklərlə qidalanması daim komandanlığın nəzarətindədir.



67987 saylı hərbi hissənin ərzaq xidmətinin rəisi mayor Şəhriyar Niftəliyev qeyd edir ki, şəxsi heyətin qidalanması müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil olunur. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin



keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün lazımi bütün tədbirlər görülür. Şəxsi heyətin qidalanması gündəlik olaraq üç dəfə həyata keçirilir və bu zaman kalorinin düzgün bölüşdürülməsinə xüsusi diqqət yetirilir. Həmçinin yeməkxanada bütün sanitar qaydalara ciddi riayət olunur. Qidalanmadan sonra bütün qablar iki faizli məhlulla yuyulur. Eləcə də qida şəxsi heyətə təqdim olunmamışdan əvvəl onun keyfiyyəti həkim tərəfindən yoxlanılır.

Xidmət rəisi şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verməyi unutmadı. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən aparıldığını da nəzərə çatdırdı. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Mayor Ş.Niftəliyev görülən işlərdə yeməkxana rəisi baş çavuş Əbülfəz Cəlilov, aşpaz-təlimatçı çavuş Sarvan Sadıqov, baş aşpaz çavuş Emil Almədətovun əməyini xüsusilə vurğuladı. Onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməklərini əsirgəmədiklərini söylədi.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı aşpazlardan əsgərlər Asif Ağayev, Röyal Heydərov, Mirməhəmməd İbrahimlinin adlarını çəkdi, mülki işçi - aşpazlardan isə Günay İbrahimxəlilova, Gülşən Əliyeva, Sevinc Abdullayeva, Elmira Yolçuyeva və Amina Nəcəfovanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**kapitan Xədicə Hacızadə**

*İdman*

## YARIŞIN İKİNCİSİ OLAN YIĞMA KOMANDAMIZ...



Daxili işlər nazirinin müvafiq əmrinə əsasən, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar fevralın 27-dən martın 1-nə kimi daxili işlər orqan və hissələri arasında silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə yarış keçirilib. Daxili Qoşunların yığma komandası Daxili Qoşunların Baş İdarəsinin əməliyyat və döyüş hazırlığı şöbəsində fiziki hazırlıq və idman rəisi polkovnik-leytenant Mehman Nəsibovun rəhbərliyi altında 8 idmançı ilə bu yarışda təmsil olunub.

Komanda üzvlərindən 99713 saylı hərbi hissədən MAXE çavuş İsrafil Musasoylu I yerə, 67987 saylı hərbi hissədən MAXE baş çavuş Fəqan Əliyev, MAXE çavuş Nurlan Hacıyev II yerə, 16075 saylı hərbi hissədən MAXE çavuş Elnur Quliyev və MAXE çavuş Ceyhun Qafarov III yerə sahibləniblər. Yarışda Daxili Qoşunların yığma komandası 13 komanda arasında II yerə layiq görülərək ilk üçlüyə düşməyi bacarıb.

Bundan sonrakı fəaliyyətində yığma komandamıza uğurlar diləyir, hər zaman qaliblər sırasında olmağı arzulayırıq.

**kapitan Nigar Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

## OPERATOR VƏZİFƏSİNİ BACARIQLA YERİNƏ YETİRƏN ƏSGƏR

Daxili Qoşunların Təlim mərkəzində müddətli həqiqi hərbi xidmətdə olan əsgər Mahir Aslanov 2001-ci il iyunun 24-də Şirvan şəhərində anadan olub. 2007-2018-ci illərdə Şirvan şəhəri 18 saylı təbiət humanitar təmayüllü məktəb-liseydə orta təhsil alıb. Orta təhsilini uğurla başa vuran Mahir 2018-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının Gəmi mexanikası və elektromexanikası fakültəsinə qəbul olunub. 2022-ci ilin iyul ayından Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarındadır. Hazırda Daxili Qoşunların Təlim mərkəzinin təminat bölüyündə operator vəzifəsindədir. O, hərbi xidmət borcunu vicdanla yerinə yetirir. Döyüş və ictimai-siyasi hazırlığında, atəş hazırlığı məşğələlərində çalışqanlığı ilə fərqlənir. Əsgər yoldaşları arasında özünə hörmət qazanıb. Komandirləri onun nizam-intizamını və icraçılıq qabiliyyətini müsbət xarakterizə edirlər.



Dediyinə görə, ən böyük marağı boş vaxtlarında mütaliə etməkdir. Əsas etibarilə detektiv janrda yazılan əsərləri daha çox oxuyur. Bir ixtisasçı kimi dəqiq fənləri öyrənsə belə, bədii ədəbiyyata olan sevgisi onu kitablara daim yaxın edib.

Üzərinə düşən vəzifələrin icrasına diqqətlə yanaşan əsgər M.Aslanov atış meydanının operatoru kimi ona təhkim olunmuş cihazların, elektrik qurğularının və avadanlıqların saxlanılmasına, texniki sazlığına və fasiləsiz işləməsinə, düzgün istifadə olunmasına, vaxtlı-vaxtında qulluq və cari təmirinə, həmçinin hədəf meydanında olan qurğuların qaydasında olmasına cavabdehdir. Avadanlıqların iş prinsipini, montaj qaydasını, quruluşunu və vəziyyətini bilir, onların düzgün istismarını təmin edir. Atışdan əvvəl və sonra cihaz və texnikalara yoxlama baxışı keçirir, nasazlıq aşkar edildikdə onun aradan qaldırılması üzrə tədbirlər görülməsi üçün rəisinə məruzə edir.

Vətənə, dövlətə xidmətin hər bir insan üçün qürurverici olduğunu düşünən əsgərimiz gələcək həyatını da vətənpərvərlik əqidəsinə sadiq olaraq yaşayacağını bildirir.

**kapitan Nigar Ağayeva**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Litva Belçikadan FN MINIMI yüngül pulemyotları alır

Litva Milli Müdafiə Nazirliyi Belçikanın "FN Herstal" şirkətindən 7.62 mm-lik FN MINIMI yüngül pulemyotları alır. "Poliqon" xəbər verir ki, bu barədə Litva Milli Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.



Məlumatda bildirilib ki, Litva Milli Müdafiə Nazirliyinin yanında fəaliyyət göstərən Müdafiə Materialları Agentliyi bu pulemyotların alqı-satqısı üçün "FN Herstal" ilə 34 milyon avro dəyərində müqavilə imzalayıb.

Müqavilənin şərtinə görə, şirkət Litva Silahlı Qüvvələrinə FN MINIMI MK3 pulemyotlarından əlavə, onun təmizləyici dəstlərini, ehtiyat lülələrini və patron çantalarını da tədarük edəcək. Sifariş çərçivəsində FN MINIMI pulemyotlarının ilk partiyası cari il ərzində Litva Ordusuna təhvil veriləcək.

Qeyd edək ki, Litva Milli Müdafiə Nazirliyinin bu pulemyotu almaqda məqsədi Quru Qoşunlarının hərbi qulluqçularına döyüş meydanında yüksək çeviklik, hərəkətlilik və effektivlik qazandırmaqdır.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000